# Şəhid Aslanov Elşənin şəhadətə ucaldığı gündən 3 il ötür

**Oktyabrın 23-də torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən birinin, Aslanov Elşən Alxas oğlunun şəhadətə ucaldığı gündən üç il ötür.**

Anım mərasimində YAP Qaradağ Rayon Təşkilatının sədri Qafar Əliyev, Qaradağ Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri rayon icra hakimiyyəti başçısının müavinləri, şöbə müdirləri şəhidin ailə üzvləri, yaxınları, qazilər, və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları tərəfindən Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilmiş, sonra isə Şəhidin məzarı önünə gül dəstələri qoyulmuşdur.








Daha sonra şəhidin ailəsi ziyarət olunub. Şəhidin valideyinləri dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı olduqlarını bildirmiş və ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və birinci Vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını ifadə etmişdir.

Sonda şəhid ailəsinin ailə üzvləri çıxış edərək onunla bağlı xatirələrini bölüşüb, şərəfli həyat və döyüş yolundan söz açıblar. Çıxış edənlər şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Aslanov Elşən Alxas oğlu 29 sentyabr 1999-cu ildə Bakı şəhəri Qaradağ rayonu Qızıldaş qəsəbəsində doğulmuşdur. O, orta təhsilini Qızıldaş qəsəbəsində yerləşən Azər Namazov adına 180 N-li tam orta məktəbdə almışdır.

İkinci Qarabağ müharibəsi zamanı könüllü olaraq cəbhəyə yollanmışdır. Füzuli və Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş və gərgin döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Qaradağ rayonu Qızıldaş qəsəbəsi Şəhidlər xiyabanında dəfn olunmuşdur.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Aslanov Elşən Alxas oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

**Rəşad ŞİRƏLİYEV**